***UOT-811.521.1***
***Səhifə: 183-189***
*https://doi.org/10.59849/2663-8967.2025.1.183*

***Nuranə Hüseynova***
***AMEA Nəsimi adına Dilçilik İnstitutu***
***nuranateacher@gmail.com***

# ETİMOLOGİYA VƏ LİNQVİSTİK PALEONTOLOGİYA

## XÜLASƏ

Məqalədə etimologiya ilə linqvistik paleontologiyanın qarşılıqlı əlaqəsindən bəhs olunur. Araşdırmada etimologiyanın inkişafı üçün linqvistik paleontologiyada əldə olunan faktların mühüm önəm daşıması xüsusi vurğulanır. Göstərilir ki, dilçiliyin arxeologiyası hesab edilən linqvistik paleontologiya metodları ilə yazıyaqədərki maddi-mədəniyyət abidələri vasitəsilə dilin qədim forması haqqında təsəvvür əldə etmək imkanları çox genişdir. Linqvistik paleontologiya dilin qədim tarixi haqqında zəngin informasiyalar verdiyindən etimoloji araşdırmalarda "açar" rolunu oynaya bilər. Bu sahədə müəyyən tədqiqatlar aparmış alimlərin fikirləri analiz olunur. Bu qənaətə gəlir ki, dilçiliyin multidissiplinar əlaqələrinin genişləndirliməsi yolu ilə zəngin dil faktları əldə oluna bilər. Bütün elmlər inkişaf etdiyi kimi, dilçilik elminin də bu gün innovativ metodologiyaya böyük ehtiyacı var. Bu baxımdan dilçiliyin maraqlı və aktual sahələrindən biri olan etimologiyanın tərəqqisi üçün qədim dil faktları ilə bağlı mühüm informasiyalar verə biləcək sahələrdən biri də linqvistik paleontologiya ola bilər. Ona görə də etimologiya ilə linqvistik paleontologiyanın inteqrasiyası əsasında dilin arxaik mənzərəsini tamamilə bərpa etmək mümkündür.

***Açar sözlər: etimologiya, arxeologiya, linqvistik paleontologiya, innovativ, metodologiya***

**Giriş:** Son dönəmlərdə dünya dilçiliyinin innovativ metodologiya ilə inkişafı etimologiyanın bir sıra elm sahələri ilə inteqrasiyasını zəruriləşdirir. Müasir dövrdə aparılan etimologiyaları etnoqrafiya, paleontologiya və arxeologiya ilə multidissiplinar əlaqələr şəklində aparmaq daha effektli nəticələr verir. Etimologiyanın digər elmlərlə də əlaqələndirilməsi müsbət nəticələr verə bilər. Təsadüfi deyil ki, V.N.Toporov etimologiyada riyaziyyat və kibernetika qanunlarının tətbiqinin zəruri olduğunu bildirir [17, s.44-59]. Müasir etimoloji araşdırmalar arxeologiya, paleontologiya, etnoqrafiya və ya etnologiya, antropologiya elmləri ilə sıx təmasların labüdlüyünu tələb edir. Yəni etimoloji araşdırmalara kompleks yanaşma metodologiyası etimologiya ilə xalqın etnogenezisini, mədəniyyətini, tarixini, adət-ənənələrini, maddi -mədəniyyət abidələrini, antropoloji və genetik xüsusiyyətlərini öyrənən elm sahələri ilə multidissiplinar inteqrasiyada tədqiqatların aparılmasını zəruriləşdirir.

Vaxtilə Ferdinand de Sössür linqvistik paleontologiya problemindən bəhs etmişdir. O, G.Xirt və İ.Şmidtin linqvistik paleontologiyadan yararlandığını qeyd edir. Onun qeydlərinə görə, "*vaxtilə Adol Pikte hind-Avropa dillərinin kökünü, mənşəyini müəyyənləşdirmək üçün onların flora və faunasını öyrənmişdir"* [3, s.391]. Bu fikirlər bir daha sübut edir ki, etimoloji araşdırmanı yalnız dilçiliklə məhdudlaşdırmaq olmaz. J.J.Varbot "Etimoloji tədqiqatlarda söz yaradıcılığı analizi" adlı məqaləsində qeyd edir ki, "*etimoloji araşdırmada diaxronik istiqamətli analizdən fərqli olaraq yalnız qohum sözlərin bir əsasdan yaranması nəzərdən keçirilmir. Burada daha ətraflı tədqiqata zərurət yaranır, fonetik qanunauyğunluqların, semantik dəyişmələrin, linqvistik coğrafiya, mədəniyyət tarixi və s. bu kimi məsələlərin nəzərdən kecirilməsinə ehtiyac duyulur"* [ 8, s.74].

J.Vandriyesin fikrincə, "*üç kateqoriyadan olan alimlər tarixəqədərki dövrü öyrənirlər: antropoloqlar, arxeoloqlar və linqvistlər. Birincilər sklet və kəllə sümükləri ilə, ikincilər maddi - mədəniyyət abidələrinin qalıqları ilə, linqvistlər isə səslərin və sözlərin müqayisəsi yolu ilə tarixəqədərki dönəmi öyrənirlər. Ancaq indiyə qədər onlar bir-birləri ilə əlaqə yarada bilməyiblər*"

[7, s.277]. Yəni J.Vandriyes, haqlı olaraq, antropologiya, arxeologiya ilə linqvistikanın bir yerdə fəaliyyət göstərməyinin zəruriliyini diqqətə çatdırırdı. Ə.Kajibəyov "Pra- və protodil sistemləri rekonstruksiyasının prinsipləri: kompleks yanaşmanın üstünlükləri" adlı məqaləsində etimologiya elminə kompleks yanaşma metodikasını irəli sürür. Məsələn, Ərdəm Kajibəyovun tədqiqatları göstərir ki, "*etimoloji araşdırmada rekonstruksiya zamanı yalnız linqvistik faktlarla məhdudlaşmaq olmaz, bu prosesdə maddi-mədəniyyət abidələri, arxeoloji tapıntılar, folklor nümunələri (xüsusilə paremiyalar) da əvəzsiz mənbələr kimi çıxış edir*" [14, s.36]. Göründüyü kimi, Ə.Kajibəyov etimoloji araşdırmalara müasir linqvistikanın fundamental tələbləri və yeni paradiqmaları aspektlərindən yanaşır. Ə.Kajibəyovun fikrincə, *"hal-hazırda türk komparativistikasında pratürk və prototürk qədimliyinin paremioloji (atalar sözləri və məsəlləri, qanadlı ifadələr, idiomlar), antropoloji (qan, tüpürcək, sümüklər və s.-nin tərkibinin təhlili), mifoloji, epik, arxeoloji, etnoqrafik və linqvistik rekonstruksiyalarına aid çoxlu sayda pərakəndə və əlaqəsiz məlumatlar qalmaqdadır. Həmin rekonstruksiyaların başlıca nəticələri bir çox hallarda bir-birinə ziddir və bunların təhlili və bir araya gətirilməsi vacibdir"* [14, s.45].

Müasir etimoloji araşdırmalarda etnologiya ilə bağlı faktlar da önəmli rol oynamaqdadır. Linqvistik paleontologiya da etimoloji araşdırmalarda qiymətli məxəzlərdən birinə çevrilməkdədir. Dilçiliyin arxeologiyası hesab edilən linqvistik paleontologiya metodları ilə yazıyaqədərki maddi-mədəniyyət abidələri vasitəsilə dilin qədim forması haqqında təsəvvür əldə etmək imkanları çox genişdir. Linqvistik paleontologiya dilin qədim tarixi haqqında zəngin informasiyalar verir. Bu informasiyalar da etimoloji araşdırmalarda etibarlı mənbələr və arqumentlər kimi istifadə oluna bilir. Yəni maddi - mədəniyyət abidələri, arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi sübutlar etimoloji araşdırmaların etibarlılıq dərəcəsini yüksəldə bilir. Məsələn, slavyan dillərinin etimologiyası sahəsində kifayət qədər böyük uğurlara imza atan N.S.Trubaçev slavyan dillərində **kot* "ocaq qalamaq üçün yer, evdə sobanın olduğu yer" sözünün rekonstruksiyasını apararkən qədim slavyan mədəniyyətindən örnəklər də gətirir. O, slavyan xalqlarının yaşadıqları ərazilərdə arxeoloji qazıntılar nəticəsində tapılmış ocaq yerlərinin **kot* sözünün semantik rekonstruksiyası üçün qiymətli məlumatlar verdiyini xüsusi vurğulayır [18, c.I, s.145-147]. T.V.Qamkrelidze və V.V.İvanov göstərirlər ki, "*müasir etimoloji araşdırmalarda maddi-mədəniyyət abidələrinin, xüsusilə arxeoloji qazıntıların da nəzərə alınması etimologiyanın etibarlılıq dərəcəsini artırmış olur"* [9, c.1, s. 93].

Azərbaycan dilçiliyində etimoloji araşdırmalarda Zaur Həsənovun [2] və Firudin Cəlilovun (Ağasıoğlunun) [1] yaradıcılıqlarında etimoloji araşdırmalarda arxeologiyaya istinad olunmasına aid nümunələr var. Ümumi dilçilikdə H.Hirt, A.Pikte, F. de Sössür, N.Marr, T.V.Qamkrelidze, V.V.İvanov və digərləri linqvistik paleontologiyadan bəhs etmişlər. Doğrudur, hind-Avropa dilçiliyində bu metodologiyadan daha çox protohind-Avropa dilinin mənşəyinin öyrənilməsi üçün istifadə olunmuşdur. Ancaq, eyni zamanda, bu problemin öyrənilməsi zamanı etimoloji faktlardan da adekvat variantlar kimi istifadə edilmişdir. S.Starostin və V.V.İvanovun araşdırmalarında linqvistik paleontologiyadan istifadə olunub. T.V.Qamkrelidze və V.V.İvanovun "Hind-Avropalılar və hind- Avropa dili" əsərində [9], Azərbaycan dilçiliyində Firudin Cəlilovun (Ağasıoğlunun) "Doqquz bitik" [1] əsərində antropologiya və arxeologiyada əldə olunan elmi məlumatların etimologiyadakı əhəmiyyətindən bəhs olunmuşdur. Məsələn, F.Cəlilov *kurqan* və *polad* sözlərinin türk mənşəli olmasını izah edərkən yazır: "*Qızıl-gümüş, mis-tunc əşyalarla bərabər, artıq dəmir-polad nizə ucluğu, ox dəmrəni, xəncər, digər yaraq-yasaq və xış ucluğu, bıçaq-oraq kimi alətlərin hazırlanması, metaləritmə kürə-sobaları, filiz külçə qalıqları yerli metalişləmə və dəmirçilik sənətinin yüksək səviyyəyə çatdığını göstərir. Bu çağlarda Arazın sağında olan Qarabağ bölgəsində polad adlı protoazər boyunun əldə etdiyi dəmir filizi və dəmirişləmə yuxarı bölgələrə yayıldığı üçün "polad" sözü Dağıstan vasitəsilə protoqafqaz dillərinə keçir və sonralar əksər Qafqaz etnoslarının folklorunda dəmir kultu ilə bağlı şəxs adlarında geniş yayılır*" [1, s.101]. Sitatdan da göründüyü kimi, F.Cəlilov arxeoloji məlumatlardan faydalanaraq *polad* sözünü mənşəyini türk leksikası ilə bağlayır. Deməli, arxeoloji və antropoloji məlumatlar etimoloji araşdırmanın effektliyini və inandırıcılığını daha da artırır.

Türkoloq Mirfatıq Zəkiyev arxeoloji, xüsusilə paleontoloji bilgilər əsasında bir çox türk etnoniminin təhlilini aparmışdır [11; 12; 13]. Tanınmış türkoloq Ərdəm Kajibəyov da etimologiyada antropologiya və arxeologiyanın əhəmiyyətini yüksək qiymətləndirir. O, protodilin rekonstruksiyasında kompleks yanaşma metodologiyasına üstünlük verilməyin tərəfdarı kimi çıxış edir. Türkoloq qeyd edir ki, "*hal-hazırda türk komparativistikasında paremioloji (atalar sözləri və məsəllər, idiomlar), antropoloji (qan, tüpürcək, sümük və s. tərkibinin təhlili), mifoloji, epik, prototürk və prototürk antik dövrünün arxeoloji, etnoqrafik və linqvistik rekonstruksiyalarından ibarət dağınıq, bir-biri ilə əlaqələndirilməyən külli miqdarda məlumatlar toplanmışdır. İndi başlıca məsələ, bəzən bir-birinə zidd olan bu rekonstruksiyaların nəticələrinin birləşdirilməsidir*" [11, s.36]. T.V.Qamkrelidze və V.V.İvanovun "Hind-Avropalılar və hind - Avropa dili" əsərində protodilin və protomədəniyyətin rekonstruksiyası və tarixi-tipoloji analizi verilir. Bu müəlliflər də qədim mədəniyyətin, arxeologiyanın semantik rekonstruksiyalarda gərəkli olduğunu vurğulayırlar. Müasir dilçilikdə hətta *linqvistik paleontologiya* terminindən də geniş istifadə olunmaqdadır. *Linqvistik paleontologiya* etimologiya ilə antropologiyanın inteqrasiyasına əsaslanır. Bu termin dilçiliyə ilk dəfə XIX əsrdə, daha dəqiq desək, 1859-ci ildə isveç alimi Adolf Pikte tərəfindən "Hind-avropalıların mənşəyi" adlı əsərində gətirilmişdir [6, s.261]. Məhz ilk dəfə A.Pikte qədim hind-Avraopa dillərinin mənşəyini öyrənmək üçün onların maddi-mədəniyyət abidələrinə, sosial həyatlarına aid, flora və faunaları ilə bağlı faktların öyrənilməsinin əhəmiyyətini göstərmiş, diqqəti bu faktlara yönəltmişdir. Doğrudur, F.de Sössür bu metodologiyanın etimologiya üçün uğurlu olmasına şübhə edir. O qeyd edir ki, "*hələ A.Pikteyə qədər Adalbert Kun linqvistikada mifologiya və dindən alınan məlumatlardan rekonstruksiyalarda istifadə etmişdir*" [15, s.261-262]. Qeyd edək ki, Azərbaycan dilçiliyində də mifoloji məlumatlardan etimoloji araşdırmalarda ustalıqla istifadə olunması ənənəsi formalaşmaqdadır. Bu, çox müsbət bir tendensiyadır. İstər Mirəli Seyidovun, istərsə də Firudin Cəlilovun (Ağasıoğlunun) araşdırmalarında biz bu tendensiyanı müşahidə edirik. Təsadüfi deyil ki, F.Cəlilov qeyd edir ki, "*etimoloq ensiklopedik biliyə malik olmalıdır, çünki hər hansı bir sözün etimologiyasını araşdırmaq üçün xalqın tarixini, yaşadığı qədim ərazini, etnogenezini, kontaktda olduğu dilləri, həm də tədqiq etdiyi dilin morfoloji quruluşunu yaxşı bilməlidir, xalqın mifoloji dünyagörüşünə bələd olmalıdır*" [1, s.127]. Çünki mifologiya da xalqın qədim təfəkkürünün izlərini yaşatdığı kimi, qədim dil materialını da mühafizə edə bilir. Etimologiya kimi, koqnitiv dilçilikdə də mifoloji faktlardan geniş istifadə olunur. T.V.Qamkrelidze *mədəniyyətin linqvistik paleontologiyası* adlanan elm sahəsinin obyektinin protodil deyil, həmin dilin daşıyıcılarının protomədəniyyəti olduğunu diqqətə çatdırır. O qeyd edir ki, "*dilçilikdə uzun müddət Sössür prinsiplərinə sadiq qalaraq dillə mədəniyyətin əlaqəsi məsələsi diqqətdən qaçmış, ancaq dilin strukturunun öyrənilməsi hədəf seçilmişdir. Lakin son dönəmlərdə yalnız dilin strukturunun öyrənilməsi ilə məhdudlaşan tədqiqat metodları dillə mədəniyyətin qarşılıqlı şəkildə öyrənilməsinə yönəlmişdir. Bu isə hind-Avropa dialektlərinin strukturunun və tarixinin öyrənilməsi zamanı bu dillərin semantik rekonstruksiyası və qədim leksem fondunun bərpası istqamətində əhəmiyyətli dərəcədə dəyişikliyə gətirib çıxarmışdır*" [9, c.II, s.458]. Yəni alimlər dilin tarixinin, etimologiyasının öyrənilməsində haqlı olaraq ənənəvi və məhdudlaşdırıcı metodlardan imtina etməyin zamanı olduğunu qeyd edir, dillə mədəniyyətin qarşılıqlı əlaqəsi prinipinə əsaslanmaqla daha effektiv elmi nəticələr əldə etməyin mümkünlüyünü sübut edirlər.

Ümumi dilçiliyin yaradıcılarından olan Ferdinand de Sössür də linqvistik paleontologiyadan ayrıca bir bölmə şəklində bəhs etmişdir [15, s.261]. Maraqlıdır ki, O.N.Trubaçev də etimologiya ilə arxeologiyanın kəsişmə nöqtələrinin olduğunu göstərir [18, s.218]. Bu, təsadüfi fikir deyil. Arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət abidələri hər hansı bir sözün etimoloji cəhətdən araşdırılması zamanı mühüm bilgilər verə bilir. Ənənəvi etimologiyadan fərqli olaraq, müasir etimoloji araşdırmalarda arxeologiya, paleontologiya, hətta genetika elmlərində əldə olunan nəticələrdən istifadə olunur. T.V.Qamkrelidze və V.V.İvanovun "Hind-Avropalılar və hind - Avropa dili" əsərində dildən kənar fəaliyyətlərin, yəni ümumi maddi-mədəniyyət nümunələrinin, o cümlədən arxeoloji məlumatların hind-Avropa dillərinin qədim leksik qatının təsbit olunmasında müstəsna əhəmiyyət daşımasını qeyd edirlər. Onların təqdim etdikləri semantik sözlük hind-Avropa protomədəniyyətinin əksi kimi qiymətləndirilir. Onlar öz metodlarını mədəniyyətin linqvistik

paleontologiyası adlandırırlar [9, c.II, s.460]. V.İ.Abayev, haqlı olaraq, göstərir ki, "*yazılı abidələrə əsaslanaraq "tarixi semasiologiya" yaratmaq qeyri-mümkündür. Yalnız müqayisəli və paleontoloji analizlə dilin yazıyaqədərki vəziyyətini bərpa etmək mümkündür. Yalnız bu cür analiz müasir təfəkkürlə dərk oluna bilməyən sözün semantikasının inkişafını əks etdirə bilər*" [6, c.II, s. 67]. V.İ.Abayevin bu fikrini dəstəkləyirik.

Etimologiya sahəsində kifayət qədər böyük təcrübə toplamış V.N.Toporovun fikrincə, "*indiyə qədərki etimologiyanın "ənənəvi prinsipləri" daha məhsuldar olsa da, bu ənənəvi prinsiplərin konkret nədən ibarət olması məsələsi də hələ dəqiq müəyyən olunmamışdır*" [17, s.46-47]. Paleontologiya, əslində, arxeologiyanın bir qoludur və qədim insan qalıqlarının antropoloji xüsusiyyətlərini öyrənir. Qeyd edək ki, roman dillərinin etimologiyası sahəsindəki tədqiqatlarda da etimoji araşdırmalarda etnoqrafik və arxeoloji materiallardan istifadə ənənəsi mövcuddur. Məsələn, italyan dilinin etimoloqu M.Alineyi və F.Benotsonun müəllifi olduqları "İtalyan dilinin etimoloji və semantik lüğəti. Söz necə yaranır" adlı əsərində arxeoloji və etnoqrafik faktlarla linqvistik faktlar birləşdirilmişdir [19, s.152]. V.N.Toporov haqlı olaraq qeyd edir ki, "*etimologiya iddia edə bilməz ki, bu (yəni ənənəvi) metodlar vasitəsilə əldə olunmuş nəticələr ancaq ona aiddir. Əgər bu məsələyə etimologiyanın semantik modelləşməsi məsələsini də əlavə etsək (xüsusilə bizim şüurumuzda onunla bağlı canlanan mədəni-tarixi realiyaları), o zaman etimologiya yalnız dilçilik çərçivəsinə sığmır*" [17, s.48]. Yəni etimologiya sahəsində böyük təcrübə qazanmış V.N.Toporov da dolayısıyla etiraf edir ki, artıq dilçiliyin bu sahəsində yeni paradıqmalara böyük zərurət var. Təsadüfi deyil ki, türkologiyada çox zaman *dilin arxeologiyası* və *fikrin rekonstruksiyası* adlı terminlərdən istifadə olunur. 1892-ci ildə türkoloq B.A.Boqoroditski ilk dəfə olaraq *dilin arxeologiyası* terminini dilçiliyə gətirmişdir [12, s.76]. Mirfatıq Zəkiyev də öz etimoloji araşdırmalarında *linqvistik arxeologiya* terminindən istifadə edir. Artıq müasir dünya dilçiliyində *linqvistik arxeologiya, dil arxeologiyası, linqvistik paleontologiya* terminləri intensiv şəkildə işlədilməkdədir. Etimoloji araşdırmada bəzi hallarda paremioloji materiallardan faydalanmaq da lazımdır. Məsələn, belə bir atalar sözümüz var: *asta gedən usta gedər*. Bu atalar sözündə *usta* sözü indi anladığımız *usta* sözü deyil. Əslində, bu söz *uslu*, yəni *ağıllı* sözüdür, sadəcə, tarixi inkişaf nəticəsində *usta* formasına keçmişdir. Halbuki bu paremiyanın ümumi semantikasından həmin leksemin məhz *uslu* sözü olmasını müəyyənləşdirmək mümkündür. Deməli, bir çox halda məntiqi hökmlə və linqvistikanın ümumi morfosemantik metodologiyası ilə etimoloji araşdırmanı düzgün şəkildə yönləndirmək mümkündür.

Yuxarıda qeyd etdiyimiz kimi, ümumi dilçilikdə çox zaman *linqvistik paleontologiya* yerinə *linqvistik arxeologiya* terminlərindən istifadə olunur. *Linqvistik arxeologiya* terminindən ilk dəfə V.A.Boqoroditski 1892-ci ildə istifadə etmişdir [12, s.76]. Akademik Nokolay Marrın araşdırmalarında da linqvistik paleontologiyadan geniş istifadə olunmuşdur. O, maddi-mədəniyyət abidələrinin dilin mənşəyinin və etimologiyasının öyrənilməsindəki əhəmiyyətini göstərirdi. Məhz N.Marrın yaradıcılığında paleontoloji analiz metodundan geniş şəkildə istifadə olunurdu. N.Marr semantik derivasiyalar metodundan geniş istifadə edərək etimoloji araşdırmalarının çoxunu linqvistik paleontologiya üzərində qurmuşdur. Onun qlottoqonik proseslərin vahidliyi haqqındakı konsepsiyası öz dövrü üçün mükəmməl bir konsepsiya idi [5, c.II, s.7]. Maraqlıdır ki, Nikolay Marr özünün *semantik paleontologiya* adlandırdığı metodologiyadan geniş şəkildə bəhrələnmişdi [5, c.II, s.262]. O, bu üsulla tarixəqədərki semantikanı bərpa etmək iddiasında idi. N.Marr semantik derivatlar şəklində sözlərin yaranma texnologiyasını müəyyənləşdirirdi. N.Marrın konsepsiyası nitqin paleontologiyasına əsaslanırdı. Onun mülahizələrinə görə, müxtəlif dilləri birləşdirən nitqin vahid genezisidir. N.Marrın konsepsiyasına görə, "*tayfa dillərinin çarpazlaşması nəticəsində bir sözün semantik derivatları müxtəlif dillərə yayılır. Bir sözlə, dil mədəniyyətlə paralel inkişaf edir*" [5, c.II, s.265].

Alman alimi Otto Şrader 1889-cu ildə nəşr etdirdiyi əsərdə linqvistik paleontologiyadan bəhs etmişdir. O, hind-Avropa dillərinin yazıyaqədərki dövrünün mənzərəsinin yaradılmasında linqvistik paleontologiyanın əhəmiyyətini göstərmişdir. Otto Şrader müqayisəli dilçilikdə etnosların fizioloji-fenotip amillərinin nəzərə alınmasının zəruriliyini diqqətə çatdırır. O, qədim alman dilinin təsbit olunmasında paleontologiya elminin məlumatlarından yararlanmağı tövsiyə edir [20, s.162]. Türkoloq Mirfatıq Zəkiyev bir çox türk etnonimlərinin etimoloji təhlilini linqvistik arxeologiya

metodu ilə aparmışdır. Belə ki, türkoloq morfonologiyanı linqvistik arxeologiyanın əsas metodu hesab edir. Türkoloq yazır ki, "*XX əsrə qədər etimologiya ancaq sözün mənşəyi problemi ilə məşğul olurdu və leksikoqrafiyaya aid edilirdi. Ancaq etimoloji lüğətlər çap olunduqdan sonra etimoloji araşdırmaların obyekti, əsasən, iki istiqamətdə inkişaf etdirildi: birincisi, etimologiya daha yalnız leksik vahidlərin mənşəyi ilə deyil, ümumilikdə, dilin söz fondunun rekonstruksiyası ilə məşğul olmağa başladı. İkincisi isə, etimologiya leksemlərlə yanaşı, qrammatik formaların və sintaktik strukturların etimologiyası ilə məşğul olmağa başladı"* [12, s.67]. Mirfatıq Zəkiyev türk dilləri daxilində morfonoloji əvəzlənmələrin türk etimologiyasında açar rolunu oynadığını təsbit etmişdir. M.Zəkiyev bir çox türk etnoslarının mənşəyini, etimologiyasını izah edərkən məhz linqvistik arxeologiya metodologiyasına əsaslanır. Məsələn, o, *qazax* etnoniminin etimologiyasını təsbit etmək üçün həmin leksemi iki hissəyə ayırır: *ka* "ağ, işıqlı" +*sak* "etnos" [12, s.78].

Qeyd edək ki, nostratik istiqamətli araşdırmalarda da antropoloji, genetika və arxeologiya ilə bağlı məlumatlardan geniş şəkildə istifadə olunur. Məsələn, Merrit Ruhlen öz əsərində bu məlumatlardan kifayət qədər geniş şəkildə qaynaqlanmışdır. M.Ruhlen qeyd edir ki, "*Dile, arkeolojiye ve genetiğe dayalı verilerin aynı problem çerçevesinde nasıl bir araya getirilebileceğinin güzel bir örneği Bantu göçleridir. Bu üç farklı alandan toplanan veriler ışığında, bugün Bantu göçlerinin doğası daha iyi anlaşılabilmiştir. Sadece birkaç yıl öncesine kadar bu konu, Amerind kadar olmasa bile, şiddetli tartışmaların yaşandığı bir konuydu"* [4, s.138]. M.Ruhlenin konsepsiyasının mahiyyəti ondan ibarətdir ki, dünya dillərinin təsnifatını aparmaqla, onları sinifləndirməklə və müqayisə etməklə paralel antropoloji, arxeoloji məlumatlarla həmin dəlilləri möhkəmləndirməklə vahid dili təsbit etmək mümkündür. S.Starostin yazır ki, "*indiyə qədər bir neçə dəfə linqvistik faktların arxeoloji və genetik faktlarla kombinasiyaları həyata keçirilmişdir ki, onların da bəziləri gələcək araşdırmalar üçün böyük ümidlər verir. Əgər biz bizim eradan əvvəl 4-5-ci əsrlərə aid linqvistik informasiya ala biliriksə, deməli, bunlar insanlıq tarixi üçün çox böyük əhəmiyyətə malikdir"* [16, s.774]. Müasir dilçilikdə *fikrin arxeologiyası* terminindən də istifadə olunur. Rus tədqiqatçısı V.Demin yazır ki, "*slavyanların, rusların və digər xalqların mənşəyini, onların dillərini və mədəniyyətlərini fikrin rekonstruksiyası və dilin arxeologiyası metodları ilə araşdırsaq, indikindən tamamilə fərqli mənzərə yaranar"* [10, s.8]. Sitatdan da göründüyü kimi, V.Demin etnosların mənşəyinin təsbit edilməsində dilin arxeologiyasının və fikrin rekonstruksiyasının mühüm amil olduğunu nəzərə çatdırır.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, linqvistik paleontologiya dilin arxaik qatını təsbit etmək üçün müxtəlif metodologiyalardan və üsullardan, eyni zamanda qaynaqlardan istifadə edir. Məsələn, uşaq dilinin öyrənilməsi, dil universalilərinin tədqiqi, müqayisəli - tarixi və müqayisəli-tipoloji araşdırmalar, substrat amillərinin tədqiqi və s. [21, s.11]. Bir sözlə, dilçiliyin bu sahəsi dilin qədim formalarının reliktini arxeologiya metodları ilə linqvistikanın metodlarının qarşılıqlı əlaqəsinin köməyi ilə öyrənir. Məhz buna görə də paleolinqvistikanın etimologiya ilə inteqrasiya olunması linqvistik araşdırmaların məhsuldarlığını artıra bilər.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Ağasıoğlu, F. Doqquz Bitik. Azərbaycan türklərinin islamaqədərki tarixi. Birinci Bitik / F.Ağasıoğlu. – Bakı: Ağrıdağ, – 2014 . – 364 s.
2. Həsənov, Z. Skiflər və onların Azərbaycan tarixində yeri: / Tarix elm. dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı / – Bakı, 2023. – 57 s.
3. Sössür, de F. Ümumi dilçilik kursu / F. de Sössür. – Bakı: BDU, –2003.– 408 s.
4. Ruhlen, M. Dilin kökeni / M.Ruhlen. – Ankara: Hece Yayınları, – 2006. –186s.
5. Марр, Н.Я. Избранные работы: [в 5 томах] / Н.Я.Марр. –Ленинград: Гос. соц.-экономическое изд.-во, – т.1.- 1936. – 521 с.
6. Абаев, В.И. Избранные труды. Общее и сравнительное языкознание: [в 2 томах] / В.И.Абаев. – Владикавказ: Ир, – т.2.– 1995. – 724 с.
7. Вандриес, Ж. Язык / Ж.Вандриес. – Москва: Государственное социально-экономическое издательство, – 1931. – 410 с.

8. Варбот, Ж.Ж. О словообразовательной структуре этимологических гнезд // – Москва: Вопросы языкознания,– 1967. №4, – с. 5-74.
9. Гамкрелидзе, Т.В.Индоевропейский язык и индоевропейцы: [в 2 томах] / Т.В.Гамкрелидзе, В.В.Иванов. – Тблиси: Издательство Тбилисского университета, – т.1. –1984. – 428 с.
10. Демин, В. Тайны русского народа. В поисках истоков Руси / В.Демин. – Спб.: Амфора, – 2014. – 447 с.
11. Закиев, М. Тюркская морфонология и этимология // – Уфа: Проблемы востоковедения, – 2014. №21(63), – с.68-75.
12. Закиев, М. Тюркская морфонология и этимология // – Уфа: Проблемы востоковедения,– 2017. №2 (76), – с.76-80.
13. Закиев, М. Тюркская морфонология и этимология // – Уфа: Проблемы востоковедения, – 2015. №2(68), – с.66-77.
14. Кажибеков, Е.З. Принципы реконструкции пра и протоязыковых систем: примущества комплексного подхода // – Баку: Советская тюркология, – 2022. №1, – с.36-46.
15. Соссюр, де Ф. Труды по языкознанию / Ф. де Соссюр.– Москва: Наука, –1977. – 695 с.
16. Старостин, С.А. Труды по языкознанию / С.А.Старостин. – Москва: Языки славянских культур,– 2007.– 920 с.
17. Топоров, В.Н. О некоторых теоретических основаниях этимологического анализа // – Москва: Вопросы языкознания, – 1960. №3. – с. 44-59.
18. Трубачев, О.Н. Труды по этимологии: [в 2 томах] // О.Н.Трубачев. –Москва: Языки славянской культуры, – т.1. – 2004. – 800 с.
19. Челышева, И. Романская этимология: тенденции и перспективы // – Екатенбург: Научный диалог, –2019. №1, – с.147-164.
20. Шрадер, О. Сравнительное языковедение и первобытная история / О.Шрадер. – Санкт-Петербург: Санкт-Петербург тип. М-ва пут. Сообщ., –1886. – 482 с.
21. https://old.bigenc.ru/linguistics/text/3163731

***Нурана Гусейнова***

***Этимология и лингвистическая палеонтология***

***Резюме***

В статье рассматривается взаимодействие этимологии и лингвистической палеонтологии. В исследовании особо подчеркивается значение фактов, полученных в лингвистической палеонтологии, для развития этимологии. В статье показано, что методы лингвистической палеонтологии, считающиеся археологией языкознания, обладают широкими возможностями составить представление о древней форме языка через дописьменный материал и памятники культуры. Лингвистическая палеонтология может сыграть роль «ключа» в этимологических исследованиях, так как дает богатые сведения о древней истории языка. В статье анализируются мнения ученых, проводивших определенные исследования в этой области. Автор приходит к выводу, что богатые языковые факты могут быть получены путем расширения междисциплинарных связей языкознания. Поскольку все науки развиваются, наука языкознание сегодня остро нуждается в инновационной методологии. В этом отношении лингвистическая палеонтология может стать одной из областей, способных предоставить важную информацию о древних языковых фактах для прогресса этимологии, которая является одной из интересных и актуальных областей лингвистики. Следовательно, на основе интеграции этимологии и лингвистической палеонтологии можно полностью восстановить архаичную картину языка.

***Ключевые слова:*** *этимология, археология, лингвистическая палеонтология, инновационная, методология*

***Nurana Huseynova***

***Etymology and linguistic paleontology***
***Summary***

The article deals with the interaction between etymology and linguistic paleontology. In the study, the importance of the facts obtained in linguistic paleontology for the development of etymology is specially emphasized. The article shows that the linguistic paleontology methods, which are considered the archeology of linguistics, have a wide range of opportunities to get an idea of the ancient form of the language through pre-writing material and cultural monuments. Linguistic paleontology can play the role of a "key" in etymological studies, as it provides rich information about the ancient history of the language. The article analyzes the opinions of scientists who have conducted certain studies in this field. The author concludes that rich language facts can be obtained by expanding the multidisciplinary relations of linguistics. As all sciences are developing, the science of linguistics is in great need of innovative methodology today. In this regard, linguistic paleontology can be one of the fields that can provide important information about ancient language facts for the progress of etymology, which is one of the interesting and relevant fields of linguistics. Therefore, based on the integration of etymology and linguistic paleontology, it is possible to completely restore the archaic picture of the language.

***Keywords:*** *etymology, archeology, linguistic paleontology, innovation, methodology.*

***Çapa tövsiyə edən:*** ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***dosent B.Məhərrəmli***
***dosent E.Əliyeva***